Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Aprel 2024

# Muzdlu əmək fəaliyyəti - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Muzdlu əmək fəaliyyəti üçün viza almaqdan ötrü iş icazəsi tələb olunur. Bu iş icazəsi zəruri olan bütün şərtlərə cavab verildiyi halda viza ilə birlikdə verilir. İşəgötürəniniz istədiyiniz fəaliyyət üçün Federal Məşğulluq Agentliyindən (Bundesagentur für Arbeit) əvvəlcədən razılıq ala bilər. Viza üçün müraciət edərkən erkən razılığın təqdim edilməsi sonrakı viza prosesini sürətləndirir. İş icazəsinin verilməsi „Məşğulluq haqqında Qaydaya“ (Beschäftigungsverordnung) əsasən tənzimlənir. Almaniyada xarici vətəndaşlar yalnız bu Qaydada tənzimlənən fəaliyyətlərlə muzdlu kimi məşğul ola bilərlər.

Əgər Siz alman və ya tanınmış xarici yaxud alman ali təhsili ilə müqayisə oluna bilən xarici ali təhsil diplomuna maliksinizsə və vergiyə cəlb edilən əmək haqqınız 3.775 €/ayda məbləğində yaxud daha artıqdırsa xahiş edirik "Aİ-nın Göy Kartı"na dair bizim məlumat vərəqəmizə diqqət yetirin. Həkimlər, İT-mütəxəssisləri, təbiət elmləri üzrə alimlər, riyaziyyatçılar və mühəndislər və bu kimi peşəyə sahib olan şəxslər üçün vergiyə cəlb edilən əmək haqqı 3.420,15€/ ayda məbləğində olmalıdır.

Muzdlu əmək fəaliyyəti üçün milli viza almaqdan ötrü **yalnız kənar viza xidməti olan „VisaMetric“ şirkətinə** müraciət edilməlidir. Viza sənədlərinin qəbulu mərkəzinin ünvanı:
**D. Əliyeva küç., 106, Winter Park Plaza, birinci mərtəbə, Bakı.**
Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:
https://www.visametric.com/Azerbaijan/Germany/de/p/terminvereinbarung

Sənədlərə baxılma müddəti orta hesabla 2-8 həftədir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 1 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi *(əsli + 1 ədəd surəti)/ / Azərbaycan vətəndaşı olmayan şəxslər Azərbaycanda yaşayış icazəsini təsdiq edən vəsiqənin sürəti*
- alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- Yaşamaq haqqında Qanunun 18-ci maddəsinin 2-ci Paragrafının 4a bəndinə uyğun olaraq imzalanmış təlimat – dəqiq iş yeri təklifi haqqında təsdiqin təqdim edilməsi
- „Məşğuliyyət münasibətlərinə dair bəyanat“a dair doldurulumuş anket (işəgötürən tərəfindən doldurulmalıdır)
- Tərcümeyi-hal
- Almaniyanın müvafiq idarəsi tərəfindən tanınılmış ali məktəb diplomu (diploma əlavəni təqdim etməyə ehtiyac yoxdur) *(əsli + 1 ədəd surəti)*

  və ya
- alman peşə təhsili haqqında sənəd *(əsli + 1 ədəd surəti)*

  və ya
- xarici peşə təhsili haqqında sənəd **və** bu təhsilin alman peşə təhsilinə bərabər tutulması barədə diplomların tanınması üzrə idarənin (Annerkennungsstelle) bildirişi *(əsli + 1 ədəd surəti)*

  və ya

- İnformasiya və kommunikasiya texnologiyaları sahəsində ən az üç illik geniş peşə təcrübəsinin yaxud son yeddi il ərzində əldə edilmiş oxşar ixtisas üzrə peşə təcrübəsinin təsdiqi (notariat qaydasında təsdiq edilmiş alman dilinə tərcüməsi ilə əmək kitabçasının təqdim edilməsi - *əsli + 1 ədəd surəti)*

  və ya

- Almaniyada davam etdirmək istədiyiniz peşə üzrə son beş ildə əldə etdiyiniz ən azı iki illik peşə təcrübəsinin təsdiqi (məsələn, notarial qaydada alman dilinə tərcümə-təsdiq edilmiş əmək kitabçasını təqdim etməklə - əsli və 1surəti) **və**

  - Əmək münasibətləri bəyannaməsinə əsasən ümumi (brutto) gəlir ayda ən azı 3.397,50€

  - Aşağıdakı ixtisaslardan birinin təsdiqi:

    a) [**2024-cü il aprelin sonundan gözlənilir**] əldə edilməsi üçün ən azı iki illik təhsil müddəti tələb olunan xarici peşə ixtisası və xarici peşə ixtisası alınan ölkədə həmin təhsilin dövlət tərəfindən tanınması barədə ZAB-dan arayış (*əsli və 1 ədəd surəti*) və ya

    b) Xarici universitet təhsilinizi bitirmək haqqında sənəd **və** bu ali təhsilin alındığı ölkədə həmin təhsilin dövlət tərəfindən tanınması barədə ZAB-dan arayış (əsli və 1ədəd surəti) və ya

    c) xarici ölkədə alınmış peşə təhsili və bu barədə Almaniyanın Xarici Ticarət Palatası tərəfindən verilmiş diplom (əsli və 1ədəd surəti).

- müəyyən şərtlər altında - alman/ingilis dili biliklərinə dair təsdiq sənədi
- müəyyən şərtlər altında - iş icazəsi yaxud əvvəlcədən iş icazəsi verən idarədən iş icazəsi üçün təsdiq məktubu (məs.: həkimlər üçün)
- müəyyən şərtlər altında – „Məşğulluq haqqında Qaydaların“ 36-cı maddəsinin 3-cü bəndinə uyğun olaraq Federal Məşğulluq Agentliyinin öncədən razılığı (Vorabzustimmung der Bundesagentur für Arbeit)
- 45 yaşına çatmış və aylıq əmək haqının 4.152,50 avrodan (illik 49.830 avro) az olmayan peşə sahibləri: ahıl yaşına çatarkən müvafiq sosial təminat haqqında sənəd
- Səfər üçün tibbi sığorta (nəzərdə tutulan səfər tarixindən işə başladığınız tarixədək qüvvədə olan, bütün Şengen dövlətləri üçün etibarlı və sığorta ödənişinin minimal məbləği 30.000 avro olan tibbi sığorta haqqında sənəd)

**Burada adı çəkilməyən sənədlərin ayrı-ayrı hallarda viza müraciəti proseduru zamanı əlavə olaraq təqdim edilməsi tələb edilə bilər.**